DÖVLƏT VERGİ XİDMƏTİ

# İllik gəliri 45000 manatdan az olan fiziki şəxslər bunu bilməlidirlər!

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən 01.01.2025-ci il tarixdən etibarən** aşağıda göstərilən fəaliyyət növləri ilə məşğul olan və həmin fəaliyyət növlərindən təqvim ili ərzində əldə etdiyi gəlirlərin (xərclər nəzərə alınmadan) həcmi 45000 manatadək olan fiziki şəxslərin həmin fəaliyyətdən əldə etdikləri gəlirlərinin 75 faizi vergidən azad olunur:

- proqram təminatının işlənməsi sahəsində xidmətlər;
- layihə-dizayn və dekorasiya xidmətləri;
- tərcümə xidməti;
- reklam xidməti;
- araşdırma və tədqiqat sahəsində fəaliyyət;
- elm, təhsil, mədəniyyət və idman sahəsində göstərilən xidmətlər;
- hüquq, sərbəst auditor, mühasibat və maliyyə sahəsi üzrə məsləhət xidmətləri;

195-1
AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az
www.taxes.gov.az

- jurnalistlərin fəaliyyəti;
- bazar konyukturunun öyrənilməsi;
- qiymətləndirmə fəaliyyəti;
- avtonəqliyyat vasitələri ilə yükdaşımalar istisna olmaqla, sifarişlərin çatdırılması və kuryer fəaliyyəti;
- turizm bələdçiliyi;
- xidmətlərin ixracı.

❖ Bu güzəşt əmək müqavilələrinə xitam verildiyi, həmin fəaliyyətlə fərdi sahibkar kimi məşğul olduğu və fərdi sahibkar kimi fəaliyyətə başladığı tarixdən 1 il müddətində eyni xidmətləri tam və ya qismən əvvəlki işəgötürənə göstərildiyi halda **tətbiq olunmur.**

❖ Bu güzəşt qeyd olunan fəaliyyət sahələri ilə məşğul olan fiziki şəxs eyni zamanda digər fəaliyyət sahəsi ilə də məşğul olduqda nəzərdə tutulan fəaliyyət sahələrindən əldə edilən illik gəlirlərin **illik ümumi gəlirlərdəki xüsusi çəkisi 50 faizdən az olmadıqda tətbiq olunur.**

BAKI — 2025